| Təqdim edilməsi zəruri olan sənədlər: | |
|---|---|
| Fərdi sahibkar və ya fiziki şəxs olan Borcalan tərəfindən: | 1. Bank tərəfindən təsdiq edilmiş formada kredit sifarişi;<br>2. Şəxsiyyəti təsdiq edən sənəd (şəxsiyyət vəsiqəsi və ya onu əvəz edən sənəd);<br>3. Gəlirlər haqqında arayış:<br>– fiziki şəxslər üçün: tutduğu vəzifə və faktiki gəlirləri haqqında iş yerindən arayış,<br>– fərdi sahibkarlar üçün: dövlət qeydiyyatı haqqında şəhadətnamənin surəti və vergi orqanının qeydi ilə son 2 rüb üzrə bəyannamə;<br>4. 18 yaşından 26 yaşınadək kişi cinsindən olan vətəndaşlar üçün hərbi xidmətin keçilməsinə, müddətli həqiqi hərbi xidmətə çağırışa möhlət verilməsinə və ya çağırışdan azad edilməsinə dair müvafiq sənəd. |
| Hüquqi şəxs olan Borcalan tərəfindən: | 1. Hüquqi şəxsin dövlət qeydiyyatı haqqında şəhadətnamə;<br>2. Hüquqi şəxsin nizamnaməsi;<br>3. Son 12 ay ərzində digər banklarda açılmış cari hesablarında olan pul vəsaitlərinin dövriyyəsi haqqında çıxarış (aylara bölünməklə);<br>4. Borcalan tərəfindən kreditin alınması üçün müraciət edilməsinə dair hüquqi şəxsin səlahiyyətli orqanının qərarı (belə qərarların qəbulu hüquqi şəxsin təsis sənədlərində (nizamnaməsində) müvafiq idarəetmə orqanının səlahiyyətlərinə aid edildikdə, həmin orqan, qeyd edilən sənədlərdə səlahiyyət bölgüsü aparılmadığı hallarda isə hüquqi şəxsin ali idarəetmə orqanı tərəfindən qəbul olunmalıdır). |
| Fiziki şəxs olan İpoteka qoyan tərəfindən: | 1. Daşınmaz əmlaka mülkiyyət hüququnu təsdiq edən sənəd;<br>2. İpoteka predmeti yaşayış sahəsi olduqda yaşayış yeri üzrə qeydiyyatda olan şəxslər barədə ipoteka qoyulan əmlakın yerləşdiyi ərazi üzrə müvafiq MİS (Mənzil İstismar Sahəsi) və ya dövlət orqanı (yerli İcra nümayəndəliyi və s.) tərəfindən verilmiş Arayış (Forma № 2);<br>3. Daşınmaz əmlakın ipoteka qoyulmasına İpoteka qoyanın ərinin/arvadının, həmçinin əmlakın digər birgə mülkiyyətçilərinin və daşınmaz əmlakda qeydiyyatda olan şəxslərin razılığı;<br>4. Daşınmaz əmlakın ipotekası haqqında müqavilənin dövlət qeydiyyatına alınması üçün dövlət rüsumunun və xidmət haqqının müvafiq dövlət orqanına və ya Bankda açılmış xüsusi hesaba ödənilməsini təsdiq edən sənədlər. |
| Hüquqi şəxs olan İpoteka qoyan tərəfindən: | 1. Daşınmaz əmlaka mülkiyyət hüququnu təsdiq edən sənəd;<br>2. Hüquqi şəxsin dövlət qeydiyyatı haqqında şəhadətnamə (İpoteka qoyan qismində Borcalanın çıxış etdiyi hallar istisna olmaqla);<br>3. Hüquqi şəxsin nizamnaməsi (İpoteka qoyan qismində Borcalanın çıxış etdiyi hallar istisna olmaqla);<br>4. Daşınmaz əmlakın ipoteka qoyulmasına razılıq verilməsinə dair hüquqi şəxsin səlahiyyətli orqanının qərarı (belə qərarların qəbulu hüquqi şəxsin təsis sənədlərində (nizamnaməsində) müvafiq idarəetmə orqanının səlahiyyətlərinə aid edildikdə, həmin orqan, qeyd edilən sənədlərdə səlahiyyət bölgüsü aparılmadığı hallarda isə hüquqi şəxsin ali idarəetmə orqanı tərəfindən qəbul olunmalıdır).<br>5. Daşınmaz əmlakın ipotekası haqqında müqavilənin dövlət qeydiyyatına alınması üçün dövlət rüsumunun və xidmət haqqının müvafiq dövlət orqanına və ya Bankda açılmış xüsusi hesaba ödənilməsini təsdiq edən sənədlər**.** |
| Digər sənədlər: | Zərurət olduqda Bankın tələbi ilə digər sənədlər təqdim olunmalıdır<br><br>**Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi ilə digər qayda nəzərdə tutulmayıbsa, gəlirlər haqqında arayışlar verildiyi tarixdən yalnız 30 təqvim günü ərzində Banka təqdim oluna bilər.* |